# Trampın ikinci zühuru: Azərbaycanı və dünyanı nə gözləyir?

**Siyasi elmlər doktoru, QAFSAM-ın (Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzi) sədr müavini Nazim Cəfərsoy** bildirib ki, Tramp administrasiyası da Qafqazda sülh prosesində maraqlı olacaq.

"***Lakin ermənilərə daha çox rəğbət bəsləyən Bayden administrasiyasından fərqli olaraq, onun Ermənistan və Azərbaycan arasında danışıqlar prosesində daha balanslı mövqe nümayiş etdirəcəyini gözləmək olar. Digər tərəfdən, Bayden administrasiyası sülh danışıqlarına Rusiya ilə rəqabətin tərkib hissəsi kimi baxdığını gizlətmirdi və bu, açıq şəkildə həyata keçirilirdi. Düşünürəm ki, Tramp bu prosesdə Rusiya ilə daha balanslı siyasət aparacaq.***

***Digər məqam ondan ibarətdir ki, Tramp İranın bu prosesə mane olmaq cəhdlərinə Baydendən daha açıq və sərt cavab verəcək. Trampın Qafqazda sülh prosesində Türkiyə ilə daha fəal əməkdaşlıq edəcəyi də gözlənilir. Düşünürəm ki, Tramp bu sülh prosesində Çinin təsirinə daha həssas yanaşacaq***", – deyə politologiya doktoru bildirib.

O qeyd edib ki, Tramp və komandasının bəzi üzvləri əvvəlki açıqlamalarında Ukraynada sülhün əldə olunmasında maraqlı olduqlarını vurğulayıblar. "***Düşünürəm ki, Tramp bu yanaşmanı praktikada tətbiq edəcək. Lakin Tramp seçki kampaniyası zamanı "müharibəni bir gündə dayandıra biləcəyini" və "Ukraynaya maliyyə dəstəyini dayandıracağını" desə belə, bu proses o qədər də sürətli olmayacaq.***

***Əvvəla, unutmayaq ki, Tramp rəsmi olaraq prezident vəzifəsinin icrasına 3,5 ay sonra – 2024-cü il yanvarın 20-də başlayacaq! Üstəlik, yeni komandanın sistemi***

***texniki baxımdan mənimsəməsi üçün 2-3 ay vaxt lazımdır. Yəni qərarların qəbulu prosesi ən azı 5-6 ay çəkəcək.***

***İkincisi, Tramp üçün Ukrayna müharibəsi Rusiya, Avropa İttifaqı, Ukrayna və hətta Çinlə münasibətlərdə və müzakirələrdə çox ciddi kartdır. Dünya supergücü sayılan ABŞ-ın prezidenti, çox uğurlu iş adamı və çox ağıllı insan olan Tramp belə strateji kartı ciddi düşünmədən heç kimə, ələlxüsus da tarixi rəqibi Rusiya prezidenti Putinə verməz!***

***Üçüncüsü, Tramp hərbi və maliyyə baxımından Ukrayna hərbi prosesindən tədricən geri çəkilə bilər, lakin siyasi və diplomatik baxımdan bölgədə ciddi aktivlik nümayiş etdirəcək. Çünki sürətli geri çəkilmə Rusiyanın, hətta Çinin də geosiyasi boşluğu doldurması deməkdir.***

***Dördüncüsü, Ukrayna geosiyasi mövqeyi, təbii sərvətləri, iqtisadi potensialı, demoqrafik xüsusiyyətləri və müharibə şəraitində hərbi dözümlülüyü ilə Avrasiya coğrafiyasında çox mühüm ölkədir. Tramp Ukraynanı itirməkdənsə, müttəfiq kimi saxlamağa çalışan kurs təyin edəcək. Amma o, bunu müharibəni davam etdirməklə deyil, Ukrayna üçün daha əlverişli şərtlərlə sülh əldə etməyə çalışmaqla edəcək***”, – ekspert hesab edir.

O xatırladıb ki, Tramp seçki kampaniyası zamanı müharibələri dayandırmaq istədiyinə dair mesajlar verib və ABŞ ordusunun bu proseslərdə iştirakına qarşı çıxıb. “***Trampın Yaxın Şərqdəki müharibə ilə bağlı mövqeyi əsasən bu çərçivədə idi. Lakin Trampın İsraillə, xüsusən də onun hazırkı baş naziri Netanyahu ilə sıx əlaqələri var. İsrail faktoru bütün ABŞ prezidentləri üçün xüsusi əhəmiyyət kəsb edən mövzu olaraq qalır.***

***Bununla belə, düşünmürəm ki, Tramp vəzifədə olduğu müddətdə Qəzzada mövcud vəziyyətin davam etməsində maraqlıdır. Buna görə də, Tramp Netanyahu hökumətinin bu müharibəni yanvara qədər həll etməsini istəyəcək. O, hətta prezidentliyinin əvvəlində bu prosesi sülh yolu ilə sona çatdırmağa çalışaraq qlobal reputasiyasını artırmaq üçün bir vasitə kimi istifadə edə bilər.***

***Digər tərəfdən, Tramp İrana qarşı sərt mövqe nümayiş etdirir. Trampın bu xətti davam etdirməsi Yaxın Şərqdə yeni qlobal qarşıdurma yarada bilər. ABŞ-İran hərbi gərginliyinin artması Azərbaycanın təhlükəsizliyi üçün müəyyən risklər yaradır***", – Cəfərsoy vurğulayıb.